AZƏRBAYCAN
QİYMƏTLƏNDİRİCİLƏR
PALATASI

*İntizam Komissiyası*

# 2025-Cİ İL ÜZRƏ İNTİZAM KOMİSSİYASININ FƏALİYYƏTİ HAQQINDA HESABAT

Qiymətləndirmə məsuliyyət tələb edir. İntizam Komissiyası bu məsuliyyətin peşə standartları çərçivəsində qorunmasına xidmət edir.



# Fəaliyyət dövrü üzrə ümumi İcmal

İNTİZAM KOMISSIYASININ HÜQUQI STATUSU SƏLAHIYYƏTLƏRI VƏ FUNKSIYALARI

İNTIZAM ICRAATI ÜZRƏ IŞLƏRƏ BAXILMA QAYDASI FƏALİYYƏTİMİZIN SİSTEMLƏŞDİRİLMƏSİ ÜZRƏ ADDIMLAR

DAXIL OLUNMUŞ MÜRACIƏTLƏRIN VERILƏN RƏYLƏRIN STATISTIK TƏHLILI VƏ SAYI

AŞKARLANAN TIPIK POZUNTULAR

EKSPERTİZA ŞURASI. ƏSASNAMƏSI VƏ IŞLƏMƏ PRINSIPI

KOMISSIYANIN TÖVSIYƏLƏRI VƏ QABAQLAYICI TƏDBIRLƏR

2026–2028-CI ILLƏR ÜZRƏ FƏALIYYƏT PROQRAMI

QIYMƏTLƏNDIRICILƏR ARASINDA IDMAN VƏ SOSIAL TƏŞƏBBÜSLƏRIN KEÇİRİLMƏSİ BARƏDƏ

# İNTİZAM KOMISSIYASININ HÜQUQI STATUSU

*“Qiymətləndirmə fəaliyyəti haqqında” Qanuna əsasən, Qiymətləndiricilər Palatasının İntizam Komissiyası Palatanın struktur vahidi kimi peşəkar qiymətləndiricilərin davranış qaydalarına və qanunvericiliyə riayət olunmasına nəzarət edən intizam orqanıdır.*
*Komissiya hüquq və vəzifə pozuntuları üzrə intizam tədbirlərinə dair rəy formalaşdırır və bu rəylər Rəyasət Heyətinin intizam icraatı üzrə qərarlarının qəbul edilməsi üçün əsas olur.*

*İntizam Komissiyası Palatanın maliyyə nəzarəti funksiyalarını həyata keçirmir.*
*Maliyyə nəzarəti Palatanın təftiş (audit) orqanı və ya müvafiq maliyyə nəzarəti strukturları tərəfindən təmin edilir.*
*İntizam Komissiyasının səlahiyyətləri yalnız Palata üzvlərinin peşə davranışı, etik normalara riayət və intizam məsuliyyəti ilə məhdudlaşır.*

*“Komissiyanın əsas vəzifələrindən biri bu il ərzində icraatına daxil olan şikayət, müraciət və intizam materiallarına baxılmasında səmərəli, şəffaf və operativ sistemin formalaşdırılması olmuşdur.”*

AZƏRBAYCAN
QİYMƏTLƏNDİRİCİLƏR
PALATASI



# İNTIZAM ICRAATI ZAMANI IŞLƏRƏ BAXILMA QAYDASI

***İNTIZAM ICRAATI ÜZRƏ IŞLƏRƏ BAXILMASI:***
***AZƏRBAYCAN RESPUBLIKASININ QÜVVƏDƏ OLAN QANUNVERİCİLİYİNƏ, PALATANIN DAXILI NORMATİV SƏNƏDLƏRİNƏ VƏ ETİK DAVRANIŞ QAYDALARINA UYĞUN OLARAQ HƏYATA KEÇIRILIR.***

### Şikayətin qəbulu və ilkin baxış

Palataya daxil olmuş şikayətlər qeydiyyata alınır, Şikayətin səlahiyyət çərçivəsində olub-olmaması, forma və məzmun baxımından tələblərə uyğunluğu araşdırılır. Şikayətin əsaslı əlamətlər daşıdığı müəyyən edildikdə, müvafiq qərarla intizam icraatına başlanılır

### İntizam icraatının başlanması

İntizam Komissiyasının bütün üzvləri daxil olmuş şikayət materialları ilə tanış olurlar. Şikayətin predmetindən asılı olaraq (zəruri hallarda )müstəqil araşdırma aparılır və ya şikayətin predmetini təşkil edən əraziyə baxış keçirilir.

### Materialların toplanması və araşdırılması

İntizam Komissiyası tərəfindən iş üzrə: zəruri sənədlər, izahatlar, hesabatlar və digər sübutlar toplanılır. Qiymətləndiriciyə şikayət ərizəsi göndərilir. Qiymətləndiricidən yazılı izahat alınır.



# İŞLƏRƏ BAXILMA MÜDDƏTININ QISALDILMASI VƏ SƏMƏRƏLİLİYİN ARTIRILMASI MƏQSƏDİ İLƏ İCLASLAR ZOOM PLATFORMA ÜZƏRİNDƏ QURULUB,

## İNTIZAM KOMİSSİYASI ZOOM PLATFORMA ÜZƏRİNDƏN HƏFTƏLIK ICLASLAR TƏŞKIL EDİR.

İntizam icraatı olan qiymətləndiricinin Zoom vasitəsilə iclasa qoşulması təmin edilir. Qiymətləndiricinin mövqeyi, izahatları və qiymətləndirmə prosesində rast gəlinən faktlar birbaşa dinlənilir və qərarların qəbulunda nəzərə alınır.

Qiymətləndiricinin mövqeyi və izahatları dinlənildikdən, iclasda iştirakı təmin edildikdən sonra o, iclası tərk edir və İntizam Komissiyası tərəfindən qapalı müzakirə mərhələsi aparılır.

Bu mərhələdə nöqsanlar, faktiki hallar və təqdim edilmiş izahatlar obyektiv və hərtərəfli qiymətləndirilir. Mövcud qanunvericiliyə və Palatanın normativ sənədlərinə əsasən rəy tərtib edilir.
Tərtib olunmuş rəy Rəyasət Heyətinin iclasında müzakirə və səsverməyə çıxarılır
Nəticədə müvafiq qərar qəbul edilir.

# “PALATAYA DAXIL OLMUŞ ŞIKAYƏTLƏR ÜZRƏ INTIZAM ICRAATLARININ VƏZIYYƏTI”




Təqdim olunan qrafikdən göründüyü kimi, hesabat dövrü ərzində Palataya ümumilikdə 60 şikayət daxil olmuşdur.

Onlardan 54 iş üzrə intizam icraatı yekunlaşdırılmış, müvafiq qərarlar qəbul edilmişdir.

Qalan 6 şikayət üzrə isə intizam icraatı hazırda davam edir və qanunvericiliyin tələblərinə uyğun olaraq araşdırma prosesindədir.




# “ŞİKAYƏT VƏ İNTİZAM ICRAATLARI ÜZRƏ YEKUN GÖSTƏRICILƏR”

- 21 — xəbərdarlıq
- 15 — töhmət
- 2 — şikayət geri çəkilib
- 13 — nöqsan aşkarlanmayıb
- 3 — Palatanın üzvü olmayan şirkətlər (müvafiq instansiyalara məktub göndərilib)

Faiz bölgüsü (54 yekunlaşmış iş üzrə)

- Xəbərdarlıq: 38.9 %
- Töhmət: 27.8 %
- Nöqsan aşkarlanmayıb: 24.1 %
- Palatanın üzvü olmayan şirkət: 5.6 %
- Şikayət geri çəkilib: 3.7 %

# AŞKARLANAN POZUNTULAR

- Müvafiq şəhadətnaməsinin olmaması
- Hesabatın səlahiyyəti olmayan şəxs tərəfindən imzalanması
- Qiymətləndirmə yanaşmalarının düzgün seçilməməsi və ya əsaslandırılmaması;
- Bazar dəyərinin kifayət qədər analitik izah olunmaması;
- Müqayisə obyektlərinin qeyri-dəqiq və ya uyğunsuz seçilməsi;
- Hesabatlarda metodiki ardıcıllığın və daxili məntiqin pozulması;
- Təsdiqlənməmiş və etibarsız mənbələrdən istifadə edilməsi.



# EKSPERTİZA ŞURASI.

# ƏSASNAMƏSI VƏ IŞLƏMƏ PRINSIPI

Ekspertiza Şurası qiymətləndirmə hesabatlarının düzgün və obyektiv hazırlanmasına nəzarət edən kollegial qurumdur. Şura hesabatların qanunvericiliyə, standartlara və etik qaydalara uyğunluğunu araşdırır. Bütün rəylər peşəkar müzakirə əsasında formalaşdırılır və şəffaflıq prinsipi qorunur. Bu mexanizm qiymətləndirmə sahəsində etimadın və keyfiyyətin yüksəldilməsinə xidmət edir. Ekspertiza Şurası hesabatlara resenziya hazırlayır.

Qiymətləndirmə hesabatları ayrıca obyekt kimi qiymətləndirilir və onların qanunvericiliyə, metodoloji tələblərə və peşəkar standartlara uyğunluğu təhlil olunur. Bu yanaşma qiymətləndirmə fəaliyyətində keyfiyyətə nəzarəti gücləndirir və hesabatların etibarlılığını artırır. Qeyd olunan işlər üzrə addımlar atılıb. Hesabat qiymətləndirmə şablonları və metodikası hazırlanıb.

***Qiymətləndirmə hesabatlarının özü müstəqil qiymətləndirmə və ekspertiza predmetidir.***

# Komissiyanın tövsiyələri və qabaqlayıcı tədbirlər

**Metodoloji uyğunsuzluqlar**

Hesabat dövrünün təhlili göstərir ki:
Ən çox rast gəlinən problem metodoloji yanaşmalarla bağlıdır
Gənc qiymətləndiricilər arasında praktiki bilik boşluqları mövcuddur
Hesabat standartlaşdırılması ehtiyacı qalmaqdadır

01

**Şəhadətnamə uyğunsuzluqları**

Hesabat dövrünün təhlili göstərir ki:
Ən ciddi pozuntulardan biri qiymətləndiricinin müvafiq şəhadətnamə olmadan qiymətləndirmə prosesində iştirak etməsi və hesabat hazırlamasıdır. Bu hal qiymətləndirmənin hüquqi qüvvəsini şübhə altına alır və peşəkar standartların kobud şəkildə pozulması hesab olunur. Belə hallara qarşı sıfır tolerantlıq prinsipi tətbiq edilir.

02

**Qabaqlayıcı tədbirlər**

Məcburi yoxlanışların sayının artırılması
Metodik nümunələrin genişləndirilməsi
Risk əsaslı intizam nəzarət mexanizminin tətbiqi
Elektron monitorinq sisteminin təkmilləşdirilməsi.·

03

# 2026–2028-CI ILLƏR ÜZRƏ FƏALIYYƏT PROQRAMI

2026-cı ilindən etibarən İntizam Komissiyası tərəfindən Qiymətləndiricilər Palatasının üzvlərinin fəaliyyətinə nəzarətin keyfiyyət səviyyəsinin artırılması planlaşdırılır.
Bu çərçivədə aşağıdakı istiqamətlər üzrə tədbirlərin həyata keçirilməsi nəzərdə tutulur:

**Preventiv nəzarət və metodiki rəhbərlik**

Nöqsanların qarşısının alınması məqsədilə hesabatların metodik nümunələrin yoxlanılması və qabaqlayıcı tövsiyələrin verilməsi.

**Debat formatında maarifləndirici kursların təşkili**

Qiymətləndiricilərin dinlənilməsi, real problemlərin açıq müzakirəsi və peşəkar yanaşmaların qarşılıqlı paylaşılması məqsədilə interaktiv debat formatında təlimlərin keçirilməsi.

**Monitorinq qruplarının yaradılması**

Qiymətləndirmə fəaliyyətinə nəzarətin gücləndirilməsi və risklərin erkən aşkarlanması məqsədilə ixtisaslaşmış monitorinq qruplarının formalaşdırılması.
Palata üzvlərinin fəaliyyətinin mütəmadi yoxlanılması, mövcud problemlər və nöqsanlar barədə strukturlaşdırılmış məlumat bazasının yaradılması.

# QIYMƏTLƏNDIRICILƏR ARASINDA IDMAN VƏ SOSIAL TƏŞƏBBÜSLƏRİN KEÇİRİLMƏSİ

Hesabat dövründə Qiymətləndiricilər Palatasının İntizam komissiyasının dəstəyi ilə qiymətləndiricilərdən ibarət futbol komandası yaradılmışdır.

Mütəmadi olaraq təşkil edilən futbol oyunlarında istənilən palata üzvü iştirak edə bilər.
Bu tədbir peşəkar icma daxilində əməkdaşlığın möhkəmləndirilməsinə, komanda ruhunun gücləndirilməsinə və qiymətləndiricilərin müsbət ictimai imicinin formalaşdırılmasına xidmət etmişdir.

Palatanın futbol komandası "Gənclər və İdman Nazirliyi tərəfindən" təşkil olunan Ulu Öndər Heydər Əliyevin xatirəsinə həsr olunmuş dövlət qurumları arasında IV minifutbol turnirində iştirakı təşkil edilmişdir.







Hər həftə qiymətləndiricilərin bir araya gələrək futbol məşqləri və oyunları keçirir. Peşəkar birlik, sağlam həyat tərzi və komanda ruhunun bariz nümunəsidir. Bu təşəbbüs yalnız idman deyil, həmrəyliyin, qarşılıqlı hörmətin və güclü peşə icmasının formalaşmasının göstəricisidir






Bu təşəbbüslərlə kifayətlənilmir. Qiymətləndiricilərin çoxsaylı istəkləri nəzərə alınaraq, gələcək fəaliyyət planında şahmat yarışlarının təşkili də nəzərdə tutulur.

# DİQQƏTİNİZ ÜÇÜN TƏŞƏKKÜRLƏR !

İntizamlı, şəffaf və prinsipial yanaşma ilə biz qiymətləndirmə peşəsinin nüfuzunu qoruyur və gələcək nəsillər üçün etibarlı peşə mühiti yaratmalıyıq.